**UOT 1**

# İSLAM SİVİLİZASİYASININ TƏŞƏKKÜLÜ, FORMALAŞMASI VƏ İNKİŞAFININ SOSİAL-FƏLSƏFİ ASPEKTLƏRİ

**Vüqar SƏLİMOV***

Məqalə redaksiyaya daxil olmuşdur: 26 yanvar 2023; çapa qəbul edilmişdir: 21 fevral 2023; online-da çap edilmişdir: 30 mart 2023.

Received: 26th of January, 2023; accepted: 21th of February, 2023; published online: 30th of March, 2023.

***Açar sözlər:*** *sivilizasiyalar, İslam sivilizasiyasının intibahı, antik fəlsəfə, İslam fəlsəfəsi, dünyəvi cəmiyyət, modernləşmə*

## Giriş

İslam sivilizasiyasının yaranması, formalaşması və inkişafı sosial fəlsəfə baxımından özünəməxsus xüsusiyyətlərə malikdir. VII əsrdə təşəkkül tapmağa başlamış İslam sivilizasiyası orta əsrlərdə dinamik şəkildə inkişaf edərək Avropa sivilizasiyasına və mədəniyyətinə ciddi təsir göstərmişdir. İqtisadi münasibətlərin inkişaf etməsi, zəngin memarlıq abidələrinə malik olması, ticarət əlaqələrinin genişlənməsi, fəlsəfənin və müxtəlif elmlərin inkişafı sahəsində əldə edilmiş uğurlar İslam sivilizasiyasını səciyyələndirən əsas xüsusiyyətlərdən biri olmuşdur. İslam dininin dəyərləri İslam sivilizasiyasının bütövlüyünü təmin olunmasında mühüm rol oynamışdır. Bu sivilizasiyanın inkişafı dövründə dünyanın dərk olunmasının qnoseoloji əsaslarını özündə əks etdirən elmi-fəlsəfi yanaşmalar və dini-fəlsəfi cərəyanlar yaranmışdır.

## İslam sivilizasiyasının təşəkkülü və formalaşması

İslam sivilizasiyası qədim Hindistan, Çin və Qərb sivilizasiyaları ilə müqayisədə sonralar, VII əsrdə yaranmağa başlamışdır. Həmin dövrdə Yaxın Şərq, Şimali Afrika və Avropanı Hindistanla birləşdirən mühüm ticarət yolu Ərəbistan yarımadasından keçirdi. Hələ İslam dinin yarandığı dövrdə Məkkə və Mədinə şəhərləri böyük ticarət mərkəzləri kimi tanınırdı. Ərəb mədəni periferiyası ilə Yaxın Şərq ölkələri arasında əlaqələrin qurulmasına müxtəlif dinlərin nümayəndələrinin Ərəbistana miqrasiyası da təsir göstərmişdir.

İslamın gəlişindən əvvəl “cahiliyyə” adlandırılan dövrdə bütpərəstlik hökm sürmüşdür. VII əsrin 30-40-cı illərində Ərəb xilafətinin təsir dairəsi Ərəbistan yarımadasının hüdudlarından kənara çıxaraq sürətlə genişlənməyə başladı. Bizansla müharibələr zamanı ərəblər Yaxın Şərqin ərazilərinə sahib oldular. Onlar İraqı və Sasani İranını fəth etdilər, şərqdə Hindistanın sərhədlərinə, şimalda isə Qafqaza çatdılar, Orta Asiyanı ələ keçirdilər. VII əsrdə Şimali Afrika, demək olar ki, Ərəb xilafətinin əyalətinə çevrilmişdi. VIII əsrin əvvəllərində Xilafətin qoşunları Cəbəllütariq boğazını keçərək İspaniyanı işğal etdi, IX əsrdə Siciliyanı, Aralıq dənizinin şərqindəki böyük adaları, o cümlədən Kipri ələ keçirdi. Beləliklə, Ərəb xilafəti orta əsrlərdə dünyanın əsas güc mərkəzlərindən birinə çevrilirdi. 661-750-ci illərdə Xilafətin paytaxtı Dəməşq (Əməvilər sülaləsi dövründə), 750-1258-ci

* *fəlsəfə üzrə fəlsəfə doktoru, BDU*
e-mail: vugarsalimov73@gmail.com

illərdə isə (Abbasilər dövründə) Bağdad olmuşdur. Bütün bunlar İslam sivilizasiyasının meydana gəlməsi, formalaşması və inkişafının məkan-zaman ölçülərini göstərir. Bir çox tədqiqatçılar VII-XIII əsrləri İslam sivilizasiyası tarixinin klassik dövrü adlandırırlar.

Həmin dövrdə Ərəb Şərqini fərqləndirən cəhət kənd təsərrüfatı ərazilərində, xüsusilə süni suvarmadan istifadə edilən yerlərdə əhalinin yüksək sıxlığı və şəhərlərin sayının çoxluğu idi. Məsələn, Nil çayının deltasında 20 min $km^2$ ərazidə 66 şəhər yerləşirdi (4, 23).

VIII-X əsrlərdə Qırmızı dəniz və Hind okeanı sahillərində müsəlman ticarət məskənlərinin yaranması İslam sivilizasiyasının inkişafına təkan verən faktorlardan biri oldu. Orada ticarət əlaqələrinin yaranması ilə yanaşı İslam dininin dəyərləri də yayılır və təbliğ olunurdu. XII əsrin əvvəllərinə qədər bu cür mərkəzlər yalnız Afrika Buynuzu sahilləri ilə məhdudlaşsa da, sonrakı dövrlərdə Şərqi Afrikanın sahilyanı ərazilərində xeyli sayda məscidlərin tikilməsinə başlanıldı.

Qeyd edək ki, İslam sivilizasiyası öz inkişafında qədim tarixə malik qonşu sivilizasiyalara, xüsusən də orta əsrlər Avropası sivilizasiyasına nəinki çatmış, hətta onu qabaqlamışdır. Ərəb xilafətinin ərazilərinin genişlənməsi ilə müəyyən dini bütövlük formalaşdı. Burada bir məqamı qeyd edək ki, xilafətə tabe digər ölkələrdəki kimi, VII-X əsrlərdə ideologiya və yaxud ictimai fikir Azərbaycanda da ümumislam mədəniyyəti ilə bağlı inkişaf etmişdir. Hüquqi, dini, dini-fəlsəfi və fəlsəfi məsələlər bütün İslam aləmi üçün, demək olar ki, eyni olduğundan Azərbaycanın ideoloji həyatı başqa yerlərdəkindən məzmunca o qədər də fərqlənmirdi. Bununla belə, yerli adət-ənənələr, xalqın xarakterindən irəli gələn xüsusiyyətlər ədəbiyyat, incəsənət, elm və mədəniyyət sahələrində öz təsirini göstərməyə bilməzdi. Xilafət tərkibinə qatılmış bütün ölkələrdə olduğu kimi, VIII əsrin əvvəllərindən Azərbaycanda da rəsmi dövlət dilinin ərəb dili olması, bu dilin tabe edilmiş xalqların ünsiyyət vasitəsinə çevrilməsi, onun çox keçmədən ədəbi-elmi yaradıcılıqda da hakim dil olmasına gətirib çıxartdı. Lakin əhalisinin çox böyük faizi türkdilli olan Azərbaycan ərazisində ictimai-siyasi və əxlaqi fikirlərlə zəngin folklor da mövcud idi. Məzmun və deyim etibarilə müsəlmançılıqdan əvvələ aid atalar sözləri, zərbi-məsəllər və başqa ədəbi nümunələr sırasında el ozanı Dədə Qorqudun dili ilə söylənilən dastanlar daha çox şöhrət qazanmışdı. Tədqiqatçıların "Azərbaycan şifahi və yazılı ədəbiyyatının babası" adlandırdığı bu oğuz dastanı şifahi şəkildə VI-VIII əsrlərdə formalaşmağa başlamış, VII-IX əsrlərdə tam təşəkkül tapmışdır (1, 270).

İslam sivilizasiyasının bütövlüyünü təmin edən dəyərlər onun özünəməxsusluğunu müəyyən etmiş, Ərəb xilafətinin yaranmasında və möhkəmlənməsində daha çox özünü göstərmişdir. Bunun nəticəsində Antik dövrün, eləcə də Aralıq dənizi mədəniyyətinin dəyərləri, mədəni, elmi və fəlsəfi ənənələri qorunub saxlanılmış və yayılmışdır. Hətta orta əsrlərdə ərəb Şərqində Antik dövrün irsinə müsəlman dünyasının ayrılmaz tərkib hissəsi kimi baxılmışdır (5, 26).

**İslam sivilizasiyasının intibahı**

İslam sivilizasiyasının intibahı dövründə dünyanın dərk olunmasının qnoseoloji əsaslarını özündə əks etdirən dini-fəlsəfi cərəyanlar yaranmışdır. Onlar insanın mahiyyəti və dünyada yeri, İslam dünyagörüşünün əsasları ilə bağlı müxtəlif yanaşmaları ifadə etmişdir. Orta əsrlərdə müsəlman mütəfəkkirləri fəlsəfə, mədəniyyət, siyasət, etika, estetika, hüquq və digər elmlər haqqında dəyərli fikirlər irəli sürmüşlər.

VII-XIII əsrlərdə müsəlman sivilizasiyası digər mədəniyyətlər və sivilizasiyalarla dialoqa açıqlığı ilə seçilirdi. Bu isə Ərəb xilafətinin özündə, Hind çayından Cəbəllütariqa qədər olan yaşayış ərazilərində dini-mədəni tolerantlıq mühitini möhkəmləndirirdi. Həmin dövrdə ərəb-müsəlman mədəniyyətinin yaradıcıları yalnız ərəblər deyil, həm də digər xalqların nümayəndələri olmuşdur. Bağdad, Dəməşq, Qahirə və Kordova kimi şəhərlər

İslam sivilizasiyası ilə digər sivilizasiyalar arasında qarşılıqlı münasibətlərin gedişini müəyyənləşdirən mədəni mərkəzlərdən idi. Orta əsrlərdə Avropa ölkələri müsəlman alimləri vasitəsilə antik dövrün irsi və ərəb-müsəlman fəlsəfəsi, elmi ilə yaxından tanış olmuşdur. İslam və Avropa sivilizasiyası Aralıq dənizi sivilizasiyasının arealında formalaşmış və inkişaf etmişdir. Sivilizasiyaların qarşılıqlı təsirinin davamlılığı antik mədəniyyətə və İbrahimi dinlərə əsaslanan dünyaya baxışa dair prinsiplərlə sıx şəkildə bağlı idi.

XIII-XV əsrlərdə İslam sivilizasiyası monoteist dinlərin təsir dairəsindən kənarda qalmış Asiya və Afrika qitələrinin ərazilərini əhatə etdi. Həmin dövrdə Cənubi və Cənub-Şərqi Asiya induizmin və buddizmin təsir zonalarına daxil idi, Tropik Afrikanın əhalisi isə bütpərəst inancları dəstəkləyirdi. İslam dini əsasən yerli rəhbərlər və onların ətrafı, eləcə də ticarətlə məşğul olan insanları özünə cəlb edirdi. İslamın sonrakı dövrlərdə mövqeyinin möhkəmlənməsi isə onun əvvəlki dini ənənələrlə sintezi yolu ilə mümkün olmuşdur (5, 63).

İslam sivilizasiyasının "qızıl dövrü"ndə tənqidi və yaradıcı təfəkkürün özünə mühüm yer tutması fəlsəfə, astronomiya, riyaziyyat, fizika, kimya və s. elmlərin inkişafı üçün vacib əhəmiyyət daşıyırdı. İslam dünyasında ilk dəfə 794-cü ildə Bağdadda kağız istehsalı fabrikinin əsası qoyulmuşdur. 6 ildən sonra bu cür fabriklər Misirdə, 950-ci ildə isə Əndəlüsdə yaradılmışdır. Mərakeşin Fəs şəhərində 859-cu ildə İslam dünyasının ən tanınmış təhsil müəssisələrindən biri olan əl-Qaraun Universiteti fəaliyyətə başlamışdır. Qadın və kişilərin təhsil aldığı həmin universitetdə bir neçə fakültə fəaliyyət göstərirdi və müxtəlif fənlər tədris olunurdu.

IX-XII əsrlərdə əl-Kindi (801-873), Əbünnəsr Fərabi (870-950), Əbülhəsən Bəhmənyar (993-1067), İbn Rüşd (1126-1198) və əl-Qəzali (1058-1111) kimi filosoflar dünya fəlsəfəsinin zənginləşməsində böyük rol oynamışlar. Orta əsrlərdə İslam dövlətlərinin böyük şəhərlərinin əksəriyyətində rəsədxanalar var idi. Azərbaycanlı alim Nəsirəddin Tusinin 1259-cu ildə yaratdığı Marağa rəsədxanası dünyada astronomiya elminin inkişafında müstəsna əhəmiyyət daşımışdır.

Tarix, coğrafiya, filologiya, astronomiya, riyaziyyat və digər elmlərə dair çoxsaylı əsərlərin müəllifi olan əl-Biruni (973-1048) Hindistanın Nandana şəhəri yaxınlığında tədqiqat apararaq Yerin səthinin sahəsini hesablamışdır. əl-Biruninin bu sahədə tətbiq etdiyi metod Avropada "Biruni qaydası" adlanır. Məşhur astronom və riyaziyyatçı əl-Fərqani (798-861) Günəşdə ləkələrin mövcudluğunu aşkar etmişdir. Onun astronomiya haqqında əsərlərindən uzun müddət Avropada dərs vəsaiti kimi istifadə edilmişdir. O, ekliptikanın əyriliyini dəqiq hesablayan ilk alim olmuşdur.

Görkəmli riyaziyyatçı və astronom Uluq bəyin (1394-1449) astrologiya haqqında «Ulduz cədvəli» kitabı nəinki Şərq, eləcə də Avropa ölkələrində geniş yayılmışdır. Həmin kitab XVII əsrdə latın, fransız və ingilis dilinə tərcümə olunaraq London, Paris, Florensiya və Cenevrədə nəşr edilmişdir. Əbülqasım əz-Zəhravinin (936-1013) "əl-Təsrif" kitabında 325 xəstəliyin təsnifatı aparılmış, cərrahiyyə əməliyyat zamanı istifadə edilən alətlər və onların istifadə qaydaları izah edilmişdir. Bu kitab XII əsrdə latın dilinə tərcümə olunmuşdur (6, 24-25).

Dünyada tanınmış riyaziyyatçı, astronom və coğrafiyaçı Məhəmməd əl-Xarəzmi (təq. 780 - təq. 846) qədim hind riyaziyyatçılarının fikirlərindən bəhrələnərək, cəbrin əsaslarına dair "Kitab əl-Cəbr vəl-Mukabəl" əsərini yazmışdır. Həmin kitabın sayəsində riyaziyyatda "alqoritm" və "cəbr" kimi terminlərdən istifadə olunmasına başlanılmışdır. Onluq say sisteminin, kəsrlərin, triqonometrik funksiyaların və s. tətbiqi əl-Xarəzmini adı ilə bağlıdır.

Orta əsrlərdə müsəlman alimləri tibb sahəsində böyük nailiyyətlər əldə etmişdir. 707-ci ildə Ərəb xilafətində ilk xəstəxana tikilmiş, sonrakı dövrlərdə onların sayı artmışdır. Avropada Avisenna kimi tanınan İbn Sinanın (980-1037) beş cildlik "Təbabət elminin qanunu" adlı kitabında xəstəliklər və onların yaranması səbəbləri, müalicə və profilakti-

kasına dair məsləhətlər verilmişdir. Kitab uzun müddət Avropa universitetlərinin tibb fakültələrinin tələbələri üçün əsas dərsliklərdən biri olmuşdur.

Görkəmli alim İbn əl-Baytarın (təq. 1197-1248) kitablarında 1400 dərman bitkisinin adı və onlardan istifadə qaydaları əksini tapmış, o cümlədən əvvəllər məlum olmayan 200-dən çox bitki növü haqqında məlumat verilmişdir. İbn əl-Baytar xəstəliklərin təbii yollarla müalicəsi üsulları barədə dəyərli fikirlər irəli sürmüşdür.

Orta əsrlər Avropasında Alhazen kimi tanınan məşhur ərəb fiziki İbn əl-Heysəm (965-1040) "Kitab əl-Mənazir" (Görmələr kitabı) kitabında optikaya dair dəyərli ideyalarla çıxış etmişdir. Buna görə də, onu bəzən "optikanın atası" adlandırırlar. İbn əl-Heysəmin astronomiya və mexanika ilə bağlı fikirləri də dünyanın görkəmli alimləri tərəfindən yüksək qiymətləndirilir.

Orta əsrlərdə İslam fəlsəfəsinin inkişafına antik mütəfəkkirlərin əsərləri güclü təsir göstərmişdir. Ərəb xilafətinin sərhədlərinin genişlənməsi müsəlman alimlərinin qədim yunan filosoflarının əsərləri ilə tanış olmalarında böyük rol oynamışdır. Həmin əsərlər nəinki İslam elmlərinin tərkib hissəsini təşkil etmiş, eyni zamanda Qərbdə yeni elmi metodların yaranmasına təkan vermişdir. VIII-IX əsrlərdə Bağdad və Kordova kimi şəhərlər böyük elmi mərkəzlərə çevrildi. Platon və Aristotel kimi antik yunan mütəfəkkirlərinin əsərləri, eləcə də riyaziyyat, astronomiya, tibb və digər sahələrə dair kitablar ərəb dilinə tərcümə olundu. Antik və ellinizm dövrünün ənənələrini davam etdirən müsəlman filosofları və alimləri yalnız müsəlman elminin inkişafına deyil, həm də Qərb elminin və ictimai-fəlsəfi fikrinin formalaşmasına mühüm töhfələr Eyni zamanda həmin dövrdə ərəb-islam mədəniyyətinin hərtərəfli inkişaf davam etdi (7, 31). XI əsrdə tibb elmi haqqında ərəb dilindən latın dilinə tərcümə olunan kitablar uzun müddət Qərbdə tibbə dair ədəbiyyatın əsasını təşkil etmişdir.

XII əsrin ortalarından XIII əsrin sonlarına kimi Qərbdə elmin və fəlsəfənin inkişafında əhəmiyyətli dəyişikliklər özünü göstərdi. Məsələn, Qərb dünyası Aristotelin əvvəlcə latın dilindən ərəb dilinə, sonralar isə yunan dilindən latın dilinə tərcümə olunmuş kitabları tanış oldu. Tərcümə edilmiş mətnlər isə bir qayda olaraq ərəb dilində şərhlərə malik idi. İslam dünyası Qədim Yunanıstan, Roma, Hindistan və digər ölkələrdəki elmi-fəlsəfi biliklərlə yaxından tanış oldu. Məsələn, azərbaycanlı filosof Əbülhəsən Bəhmənyar Qədim Yunanıstanın Aristotel, Sokrat və Platon kimi filosoflarının fikirlərindən bəhrələnmiş və öz əsərlərində dəfələrlə onlara istinad etmişdir.

Monqol istilaları nəticəsində Ərəb xilafəti 1258-ci ildə süquta uğrasa da erkən islam dövlətçiliyi ənənələri müsəlman şərqində davam etdi. Ərəb xilafətində erkən islama aid olan mənəvi idarəçilik prinsipləri, onların normativ-hüquqi əsasları Osmanlı və Monqol imperiyalarının meydana gəlməsində mühüm rol oynadı. Həmin dövlətlər İslam hüququna əsaslanırdılar.

XVII-XVIII əsrlərdə Osmanlı imperiyasının elm və mədəniyyət sahəsində əldə etdiyi uğurlar İslam sivilizasiyasının inkişafına böyük töhfələr vermişdir. Həmin dövrdə Avropaya xas olan rokoko və barokko üslubu ilə inşa edilmiş memarlıq abidələrin sayı İslam ölkələrində çoxalmağa başlamışdır. XVIII əsrin əvvəllərində Osmanlı imperiyasında Avropa ölkələrinin elm, mədəniyyət və incəsənət sahəsində təcrübələrinin öyrənilməsinə xüsusi diqqət yetirilirdi. XIX əsrin 40-cı illərində Osmanlı imperiyasında həyata keçirilən məktəb islahatı dünyəvi təhsil almış kadrlara ehtiyacın təmin olunması üçün mühüm əhəmiyyət kəsb etmişdir.

**İslam ölkələrində modernləmə cəhdləri**

İslam ölkələrində modernləmə cəhdlərinə XVIII əsrdə başlanılsa da, həmin dövrdə bu, özünü doğrultmamışdır. Mühafizəkar qüvvələr yaranmış uğursuzluqdan istifadə edərək bildirmişlər ki, Qərbin təcrübəsini tətbiq etmək məqsədəuyğun deyil. Əksinə, keçmiş

qaydalara qayıdış vacibdir ki, İslam dünyası yenidən qüdrətli olsun (8, 97). Həmin dövrdən etibarən Avropa ölkələri İslam dünyasında siyasi həyatda iştirakçılığın genişlənməsinə, iqtisadi rəqabətə və elmlərin inkişafına mühüm təkan verdi. Təbii ki, bu isə İslam sivilizasiyasında yüzilliklər ərzində formalaşmış həyat tərzi ilə uyğunsuzluq yaradırdı. Qərbi Avropa sivilizasiyasına məxsus olan dəyərlərlə İslama məxsus ənənələr arasındakı fərqlər ziddiyyətlərə səbəb olurdu. Osmanlı imperiyasında yaranmış vəziyyətdən çıxış yolu ilə bağlı müxtəlif fikirlər irəli sürülürdü. Məsələn, dövlət idarəçiliyi sahəsində çalışan insanlar daha praqmatik olmaqla Avropanın aparıcı dövlətlərinin nailiyyətlərindən istifadə etməyin tərəfdarı idi.

Özündə yalnız ruhani təbəqənin nümayəndələrini – imamlar, müftilər, üləmalar və şeyxləri deyil, həm də dini və dünyəvi məktəblərin müəllimlərini, ədəbiyyatçıları, jurnalistləri və digər şəxsləri birləşdirən intellektual elita isə hakim təbəqə ilə adi insanlar arasında əlaqələndirici funksiya yerinə yetirirdi (5, 69). Onlar Osmanlı imperiyasında siyasi və iqtisadi dəyişikliklərin həyata keçirilməsinə mühüm təsir göstərirdilər. Bununla yanaşı ictimai narazılıq və inamsızlıq onları narahat etdiyindən Osmanlı cəmiyyətinin vahidliyinin qorunub saxlanılması üçün çıxış yolları axtarırdılar.

XIX əsrin sonlarında İslam sivilizasiyasının qlobal iqtisadi sistemə qoşulması prosesi başlamışdır. Müsəlman ölkələrinin əhalisinin hüquqi və siyasi dünyagörüşündə, xüsusilə dini şüurunda ciddi dəyişikliklər baş verirdi. Həmin dövr İslam sivilizasiyasının tarixində Cəmaləddin Əfqani (1838-1944) və Məhəmməd Abdo (1849-1905) kimi tanınmış mütəfəkkirlərin və siyasətçilərin islahatçı baxışları ilə yadda qalmışdır.

C.Əfqani İslam dininin müasirləşməsinin və İslam həmrəyliyinin fəal tərəfdarlarından biri olmuşdur. O, cəmiyyətin inkişafının əsasında elmin dayandığını bildirərək demişdir ki, dünyanın sultanı həmişə elm olmuş, elmdir və elm olaraq qalacaqdır (2, 26-27). C.Əfqani çıxışlarının birində bildirmişdir ki, müsəlman üləmaları elmi iki yerə bölür: müsəlman elmləri və Avropa elmləri. Bununla da onlar müsəlman xalqını faydalı elmləri mənimsəməkdən çəkindirirlər. Onlar başa düşmürlər ki, insanı şərafətli edən elm ayrıca heç bir xalqa mənsub deyil, kim ona yiyələnsə onundur. C.Əfqaninin fikrincə, müsəlmanlar Aristoteli o qədər rəğbətlə oxuyurlar ki, elə bil o əsl müsəlmandır. Amma Nyutonu, Qalileyi, Kepleri kafir hesab edirlər. Elmin atası-anası və sübutu dəlildir. Burada əsas Aristotel, yaxud Qaliley deyildir, haqqı, həqiqəti sübut edən elmi bizim üləmalar qadağan edirlər, elə bilirlər ki, bununla islamı qoruyub saxlayırlar. Belə adamlar əslində İslamın düşmənidirlər (2, 32-33).

Misirli ictimai xadim, İslamın modernləşməsinin fəal tərəfdarlarından biri olan Məhəmməd Abdo (1849-1905) Cəmaləddin Əfqani ilə tanış olduqdan sonra onun dünyagörüşündə ciddi dəyişikliklər baş vermişdir. O, C.Əfqaninin tövsiyəsi ilə Avropa fəlsəfəsini və dünyəvi elmləri öyrənmişdir. M.Abdo müsəlman ölkələrində təkamül prinsipinə söykənməklə islahatların aparılmasının vacib olduğunu bildirmiş, inkişafın əsasında elmin dayandığını vurğulamış və dini ehkamçılığı tənqid etmişdir. O yalnız İslam elmlərini öyrənməklə kifayətlənməyin yolverilməz olduğunu bildirmiş və müsəlmanları Qərbin elmi-texniki nailiyyətlərindən bəhrələnməyə çağırmışdır. Göründüyü kimi, XIX əsrin sonlarında islahatçı ideyalar vasitəsilə İslam sivilizasiyasında ənənəvi baxışların və yanaşmaların dəyişməsi, cəmiyyətin dini-mənəvi sahəsində yeni dəyərlərin özünə yer tutması təbliğ olunurdu.

XIX əsrdə "Gənc türklər" hərəkatının fəallaşması müsəlman dünyasında, xüsusilə modernləşmə islahatlarının tərəfdarları arasında geniş əks-səda yaratdı. Bu hərəkat ölkədə kapitalizmin inkişafına müəyyən təkan verməyə başladı (5, 117). Hərəkata qoşulmuş insanlar yeniliklərə qarşı çıxan ənənəvi siyasi quruluşun müdafiəçiləri ilə mübarizə aparırdılar. Orada diqqəti cəlb edən əsas cəhət hərəkatın fəaliyyətinin milli özünüdərkə əsaslanması idi.

I Dünya müharibəsindən sonra Osmanlı imperiyasının süquta uğramasının nəticəsində onun ərazilərində ciddi geosiyasi dəyişikliklər baş verdi. 1923-cü ildə Türkiyə respublika elan edildi və Mustafa Kamal Atatürkün təşəbbüsü ilə ölkədə yeni siyasi və iqtisadi sistemin bərqərar olması istiqamətində geniş islahatların həyata keçirilməsinə başlanıldı. Türkiyədə yeni tipli siyasi institutların yaradılmasında, sosial, hüquqi, mədəni və iqtisadi həyatın yenidən qurulmasında, bir sözlə, ölkənin gələcək inkişaf yolunun müəyyən edilməsində Qərbin mütərəqqi dəyərləri örnək rolunu oynadı.

Türkiyənin dövlət quruluşunu, siyasi və iqtisadi münasibətlər sistemini İslam ölkələrinin hamısı özləri üçün model seçməsələr də, Türkiyə dünyada İslamı modernləşdirən dövlət kimi böyük nüfuz qazandı. Digər İslam ölkələrində isə modernləşmə prosesi ləng gedirdi, hətta bəzən ziddiyyətlərlə müşayiət olunurdu. Məsələn, Ərəb ölkələrində modernləşmə tərəfdarları ilə ortodoksal islam ənənələrini qoruyanlar arasında kəskin mübarizə başlamışdı.

Əsasən, XX əsrin ortalarından etibarən Yaxın Şərq ölkələrində müstəmləkə rejimlərinin süqutunun başlaması İslam sivilizasiyasının inkişafına yeni xüsusiyyətlər gətirdi. Müsəlman ölkələrinin müstəqillik əldə etməsi İslam sivilizasiyasının əsaslarına ciddi təsir göstərdi. İctimai həyatın sekulyarlaşması meylləri gücləndi. Müsəlman cəmiyyətinin müasirliyə çevik şəkildə uyğunlaşmaq qabiliyyətinə malik olduğu özünü göstərdi (9, 29-37). Bununla yanaşı bəzi İslam ölkələrində yeni siyasi və iqtisadi münasibətlərə keçid uğursuzluqla nəticələnirdi. Həmin dövrdə İslamın müasirləşməsi daha çox inkişaf etmiş ərəb ölkələrində (Misir, Suriya, İraq) özünü göstərdi. 1970-ci illərdə müsəlman dövlətlərində modernləşmə prosesləri daha sürətləndi (10, 3).

Hazırda İslam dini ona etiqad edənlərin sayına görə dünyada xristianlıqdan sonra ikinci yeri tutur. Əgər XX əsrin 70-ci illərində dünyada 800 milyon müsəlman yaşayırdısa, hazırda 1,9 milyarda yaxın insan İslam dininə etiqad edir ki, bu da yer kürəsində əhalinin 24,5 %-i deməkdir. Dünyada Müsəlman Şərqi zəngin neft və qaz ehtiyatlarına görə böyük geosiyasi əhəmiyyətə malikdir. Müasir dövrdə beynəlxalq islam təşkilatlarının fəaliyyət dairəsi genişlənir. İslam Konfransı Təşkilatı, İslam Dünyası Liqası və Ümumdünya İslam Konqresi kimi qurumlar həm ayrıca ölkələr, həm də beynəlxalq təşkilatlar səviyyəsində İslam sivilizasiyasının siyasi, sosial-iqtisadi və mənəvi tərəflərinə dair məsələləri diqqət mərkəzində saxlayırlar.

**Nəticə**

Yuxarıda göstərilənlərdən aydın olur ki, İslam sivilizasiyasının yaranması, formalaşması və inkişafının mühüm sosial fəlsəfi tərəfləri vardır. Bu sivilizasiya tolerant dəyərlərə və birgəyaşayış qaydalarına əsaslanmaqla digər sivilizasiyaların inkişafına mühüm təsir göstərmişdir. Xüsusilə, orta əsrlərdə İslam sivilizasiyası Avropa sivilizasiyasının və mədəniyyətinə böyük töhfələr vermişdir. XVIII əsrin sonu-XIX əsrin əvvəllərindən başlayaraq, İslam sivilizasiyasında modernləşmə prosesi müxtəlif mərhələlərdən keçmişdir. Əsasən, XX əsrin ortalarından etibarən Yaxın Şərq ölkələrində müstəmləkə rejimlərinin süquta uğraması İslam sivilizasiyasının inkişafına yeni xüsusiyyətlər gətirmiş, cəmiyyətdə sekulyarlaşma prosesi güclənmişdir. Müasir dövrdə İslam sivilizasiyası dünyanın geosiyasi və geoiqtisadi mənzərəsinin müəyyənləşməsində özünəməxsus yer tutur.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi. Yeddi cilddə. II c. (III-XIII əsrin I rübü). Bakı: Elm, 1998, 608 s.
2. Cəmaləddin Əfqani. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1998, 72 s.
3. Qurbanov R. Türk xalqlarının tarixi. Bakı: İqtisad Universiteti Nəşriyyatı, 2011, 216 s.
4. Мусульманская цивилизация: влияние религии и культуры на современные международные отношения: учеб. пособие для студ. вузов / Н. Н. Юсеф. К.: ДП Изд. дом «Персонал», 2012, 272 с. Библиогр, 265–271 с.
5. Исламская цивилизация в глобализирующемся мире. М.: ИМЭМО РАН, 2011, 336 с.
6. Мамадалиев Н., Кочкорова Г. Исторический период исламского ренессанса // Журнал «Интернаука», 2021, №10, часть 2, с. 24-26.
7. John L. Esposito. The Oxford History of Islam, Oxford University Press, 1999, 749 p.
8. Якупов С.Ф. Особенности исламской цивилизации: менталитет, политико-правовые и экономические институты // Вестник Челябинского государственного университета. 2012, №35, с. 95-100.
9. Мирский Г. Исламская цивилизация в глобализирующемся мире // «Мировая экономика и международные отношения», 2004, №6, с. 29-37.
10. Yaser Ellethy. Islam, Context, Pluralism and Democracy: Classical and Modern Interpretations. Routledge, 2015, 354 p.



### *Резюме*

***Вугар Салимов***

***Социально-философские аспекты возникновения, формирования и развития исламской цивилизации***

В статье анализируется возникновение, становление и развитие исламской цивилизации с точки зрения социальной философии. Отмечается, что существует историческое взаимодействие между исламской цивилизацией и другими цивилизациями. В частности, исламская цивилизация оказала значительное влияние на европейскую цивилизацию и культуру в средние века. В этот период европейские страны были близко знакомы с античной философией, наукой и культурой через мусульманских ученых. В средние века мусульманские ученые выдвинули ценные идеи о философии, культуре, политике, этике, эстетике, праве и других науках.

Модернизационные процессы в исламской цивилизации, начавшиеся в основном в XVIII в., прошли различные этапы. Некоторые консервативные силы в мусульманских странах заявили, что ценности неисламских цивилизаций несовместимы с исламской цивилизацией. Несмотря на это, ученые, поддерживающие инновации в исламском мире, выдвинули прогрессивные идеи и заявили о важности модернизации. Ценности, принадлежащие европейской цивилизации, в основном связанные с политическим управлением и экономическими отношениями, оказали влияние на исламскую цивилизацию с XVIII века.

Начало интеграции исламской цивилизации в мировую экономическую систему в конце XIX века усилило модернизационные тенденции в мусульманских странах и вызвало изменения в правовом и политическом мировоззрении населения. Создание Турецкой Республики в 1923 г. и проведение широких реформ под руководством Мустафы Кемаля Ататюрка в направлении установления новых политических и экономических отношений в стране оказали серьезное влияние на страны исламской цивилизации. В исламской цивилизации Турция добилась больших успехов как государство, избравшее путь модернизации. Государственное устройство Турции, система политических и экономических отношений стали образцом для многих исламских стран.

С середины XX века крах колониальных режимов в странах Ближнего Востока внес новые черты в развитие исламской цивилизации. В этот период в исламских странах были созданы благоприятные исторические и политические условия для развития науки, культуры и искусства. В новейшее время исламская цивилизация играет важную роль в геополитических и геоэкономических процессах в мире.

***Ключевые слова:*** *цивилизации, ренессанс исламской цивилизации, античная философия, исламская философия, светское общество, модернизация*

***Summary***

***Vugar Salimov***

***Socio-Philosophical Aspects of the Emergence, Formation and Development of Islamic Civilization***

The article analyzed the emergence, formation, and development of Islamic civilization from the point of view of social philosophy. It is noted that there is a historical interaction between Islamic civilization and other civilizations. In particular, Islamic civilization had a significant impact on European civilization and culture during the Middle Ages. During this period, European countries were intimately familiar with ancient philosophy, science and culture through Muslim scholars. During the Middle Ages, Muslim scholars put forward valuable ideas about philosophy, culture, politics, ethics, aesthetics, law and other sciences.

Modernization processes in Islamic civilization, which began mainly in the 18th century, have gone through various stages. Some conservative forces in Muslim countries have declared that the values of non-Islamic civilizations are incompatible with Islamic civilization. Despite this, scholars who support innovation in the Islamic world have put forward progressive ideas and declared the importance of modernization. Values belonging to European civilization, mainly related to political administration and economic relations, have influenced Islamic civilization since the 18th century.

The beginning of the integration of Islamic civilization into the world economic system at the end of the 19th century strengthened the modernization trends in Muslim countries and caused changes in the legal and political view of the population. The establish of the Republic of Turkey in 1923 and the implementation of broad reforms under the leadership of Mustafa Kemal Atatürk in the direction of establishing new political and economic relations in the country had a serious influence on the countries of Islamic civilization. Turkey has gained a great reputation as a state that has chosen the path of modernization in Islamic civilization. The state structure of Turkey, the system of political and economic relations have become a model for many Islamic countries.

Since the middle of the 20th century, the collapse of colonial regimes in the countries of the Middle East has introduced new features into the development of Islamic civilization. During this period, favorable historical and political conditions were created in Islamic countries for the development of science, culture and art. In modern times, Islamic civilization plays an important role in the geopolitical and geo-economic processes in the world.

***Keywords:*** *civilizations, the renaissance of Islamic civilization, ancient philosophy, Islamic philosophy, secular society, modernization*

Baş redaktor f.e.d, prof. Hüseynli Nazim Ziyad oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.